***UOT-811.512.162***
***Səhifə:17-20***
*https://doi.org/10.59849/2663-8967.2023.2.17*

***Gülçin Sofiyeva***
***Odlar Yurdu Universiteti,***
***filologiya üzrə fəlsəfə doktoru***
***E-mail: gulcinsofiyeva@hotmail.com***

# MÜASİR AZƏRBAYCAN DİLİ LEKSİKASININ METODOLOJİ MƏSƏLƏLƏRİ

## XÜLASƏ

Leksik semantika dilçilik sahəsində öyrənilən mövzu olsa da, korpus dilçiliyi sahəsində leksik semantikanın öyrənilməsi yenidir. Leksik semantikanı korpus dilçiliyi metodları ilə öyrənərək təbii dil məlumatları vasitəsilə sözlərin meyllərini göstərməyə ehtiyac var. Leksik mənanın sistem, struktur və paradiqmatik-sintaqmatik cəhətdən öyrənilməsi vəzifəsi əvvəlcədən bir sıra ontoloji və metodoloji məsələlərin müzakirə olunmasını tələb edir.

Leksik semantikanın inkişafının arxasında dörd əsas nəzəri cərəyan dayanır: prestrukturalist semantika, strukturalist və neostrukturalist semantika, generativ və neogenerativ semantika və koqnitiv semantika.

Bu məqalədə müasir Azərbaycan dili leksikasının metodoloji məsələlərinin tarixi gedişatı haqqında qısa məlumat verildikdən sonra semantik nümunələrlə ətraflı təqdim edilir və onun semantikaya verdiyi töhfədən bəhs edilir.

***Açar sözlər:*** *Azərbaycan dili, leksik semantika, korpus dilçiliyi, koqnitiv, metdoloji məsələlər.*

**Giriş**: Dilçiliyin alt sahələrindən biri olan semantika yunanca isim kimi işlənən *sema* və *işarə, işarə, nişanə* mənasını verən *sema* və işarə etmək, göstərmək, işarələmək kimi ifadə edilən *semaino* sözlərindən əmələ gəlib [1,s.79].

Son illər mənaların tədqiqində bir sıra yeni istiqamətlər meydana çıxmışdır. Bununla yanaşı semantik tədqiqatların obyektinə baxış da xeyli dəyişmişdir. Xüsusən, leksik mənanın semantika elminin yeganə obyekti olması haqqında təsəvvür aradan qaldırılmışdır. Hazırda dilin leksik-semantik sistemi tədqiq edilərkən paradiqmatik münasibətlər arasındakı fərqlər aydın şəkildə göstərilir və eyni zamanda həmin münasibətlər arasında əlaqələr müəyyənləşdirilir. Müasir leksik-semantik tədqiqatlarda mentiqi-semantik təhlil aparılır, müəlliflər sözlər arasındakı münasibətləri aşkara çıxarmağa və məntiqi cəhətdən xarakterizə etməyə meyil göstərirlər. Dilçilikdə sözlər arasındakı münasibətlərin təsnifatı başlıca olaraq məna əsasında deyil, forma əsasında qurulur. Misal üçün, hesab edilir ki, çoxmənalı söz bir dil vahidini təşkil edir. Əksinə, bir neçə eyni, yaxud yaxın mənalı söz müxtəlif vahidlər hesab edilir. Halbuki qrammatik morfemlərin təsnifatında formaya deyil, mənaya üstünlük verilir. O ki qaldı omonimliyə, burada leksik vahidlərin fərqləndirilməsinin əsasını məna təşkil edir. Lakin, göründüyü kimi, sözlər arasında bu və ya digər semantik münasibətlərin müəyyənləşdirilməsi hər halda işarələndirilənlərin qarşılıqlı münasibətləri ilə sıx bağlıdır. Özü də həmin semantik və formal əlaqələr bir neçə ilkin (elementar) məntiqi münasibətlərə çevrilə bilər. Semasiologiyanın başlıca mövzularından sayılan çoxmənalılıq, omonimlik və sinonimlik dil işarələrinin məna və şəkilcə müxtəlif münasibətlərinə əsaslanan dil hadisələri sırasına daxildir. Onu da qeyd etmək lazımdır ki, "məna" ya "işarələnən" terminin işlənməsində dil işarəsinin daxili cəhətinin yalnız leksik-semantik tərəfi nəzərdə tutulur. Lakin dilin hər bir işarəsi onun sintaktik tərəfi, yəni həmin işarənin başqa işarələrə birləşməsinin imkanları ilə də səciyyələnir. İşlədiyi subyektlər baxımından praqmatika və diskurs təhlili ilə üst-üstə düşən semantika dildə ifadə olunan mənanın sistemli tədqiqidir.

Məhz bu baxımdan son illərdə tədqiqatçılar tərəfindən leksik-sintaktik uyğunluğun əhəmiyyəti geniş şəkildə vurğulanır. Bu araşdırmaların maraq dairəsi leksik-semantik formanın uzlaşması və felin tamamlayıcı mövqeyi və dəyişməsi, polivalentlik və çoxmənalılıq kimi bir çox məsələlər vurğulanıb. Qeyd olunan bu məsələləri (problemləri) daha geniş kontekstdə araşdıran tədqiqatçılardan biri R.Cekendof olmuşdur. Onun konseptual semantika ilə bağlı izahları diqqəti cəlb etmiş və leksik semantika tədqiqatları daha sistemli xarakter almışdır. Bu inkişaflardan sonra nitqdə sözlərin əhəmiyyətinə diqqət çəkən araşdırmalar sürət qazanmışdı. Qısa tarixi perspektivlə təqdim olunan nəzəri bazaya görə, semantikanın qabarıq xüsusiyyəti dil ifadələrinin bütövlükdə necə bir araya gəlməsi və məna qazanmasının müəyyən etmişdir. Ayrı-ayrı sözlər daha böyük bölmələr yaratsa da, onların birləşmə prinsiplərinin müəyyən edilməsi əsas tədqiqat mövzusuna çevrilmişdir. Sintaktik struktur daxilində bölmələrin semantik funksiyalarından bəhs edərkən, qısaca desək, semantikanın predmeti leksik elementlərin və morfemlərin nəyi təsvir etdiyini və bu elementlərin daha mürəkkəb ifadələr yaratmaq üçün necə birləşdirilə biləcəyinin qaydalarını müəyyən edir [4,s.3].

Həm filosofların, həm də dilçilərin maraq dairəsi olan semantika ilə bağlı çoxlu nəzəri tədqiqatlar mövcuddur. Bu nəzəri yanaşmalar tarixi inkişaf boyu bəzən bir-birini tamamlayır, bəzən də bir-birindən fərqlənsə də, tədqiqatçılara tamamilə yeni yollar tapmağa imkan verir. Xüsusilə son iyirmi ildə Generativ Leksik Nəzəriyyə (GLN) cümləni təşkil edən elementləri və onların cümlə daxilindəki mövqeyinin mənanın müəyyən edilməsində əhəmiyyətini vurğulayan nəzəriyyələrdən birinə çevrilmişdir. Tamamlama prinsipinə əsaslanan nəzəriyyə, cümlənin mənasının müəyyən edilməsində birlikdə baş verən digər sözlərin mənasından faydalanmağı baxımından da əhəmiyyət daşıyır [4,s.3].

Semasiologiyanın hər hansı xüsusi probleminin həlli bilavasitə tədqiqat obyektinin təbiəti ilə şərtləşən mühüm nəzəri məsələlərin bu və ya başqa cür başa düşülməsindən asılıdır. Buna nümunə olaraq, “polisemiya-sinonimiya” kimi mərkəzi semasioloji problem sözün dildə ayrıca, müstəqil leksik mənasının aydınlaşdırılmadan həll edilə bilməz. Bununla bağlı D.Şmelyov qeyd edir: “Əslində, hər bir tədqiqatçı leksikanın bu və ya digər sahəsini semantik cəhətdən tədqiq etməyə başlayarkən, özünün çıxış nöqtəsi kimi götürülmüş nəzəri müddəalarını və metodoloji prinsiplərini əsaslandırmağa məcburdur” [12, s.8].

O, biri tərəfdən, leksik-semantik təhlil zamanı semiotik aparat da cəlb olunmalıdır. V.Zvegintsev semiotikanın (işarə haqında ümumi nəzəriyyəni) hətta ictimai elmlərin riyaziyyatı adlandırır [8, s.215]. Əlbəttə, leksik mənanın məntiqi, psixoloji üsullarla tədqiq etmək hələ heç də sırf dilçilik elminin vəzifəsi sayılmamalıdır, çünki dilin quruluşu və təfəkkürün qanunları, həm də nitq fəaliyyətidir: psixolinqvistika, sosiolinvistika kimi sahələr daha çox “xarici” dilçiliyə aiddir [5, 23].

Dilçilikdə strukturalizm cərəyanının nümayəndələri bu qənaətə gəlmişdir ki, dil bir sistemdir. Buradan da müasir dilçiliyin “ümumi sistem nəzəriyyəsinə” qoşulması meyili doğur. Buna nümunə olaraq, M.Qarayev belə hesab edir ki, “dilin sistemi və onunla bağlı strukturu anlayışları haqqında ziddiyyətli fikirlər müasir elmdə müvafiq nəzəriyyənin lazımınca işlənməsi ilə əlaqədar olub, bir növ ümumi vəziyyətinin inikasıdır” [7,s.37].

Belə olduqda sual oluna bilər ki, bu vəziyyətin yaranması nə dərəcədə realdır? Həmin suala əsaslandırılmış cavabı İ.Blauberq və N.Yudinin əsərində tapmaq mümkündür. Müəlliflər yazırlar ki, “sistem yanaşması yaxın gələcəkdə məhz metodoloji cərəyan kimi inkişaf edib sözün əsl mənasında nəzəriyyəyə çevrilməyəcək” [6,s.9]. Dil həm də işarələr sistemidir. Təsadüf deyil ki, “sxem-norma-uzus”, “sistem-norma-nitq”, “struktur, substansional, kommunikativ səviyyələr” və d. bölgülər məhz semiotik üçlüklə səsləşir: sintaktika-semantika-praqmatika [3,s.287].

Qeyd olunanlardan sintaktika ilə semantika “dilə” uyğun gəlir. “Nitqdə” isə üstəlik praqmatika (tarixi, mədəni, sosioloji, psixoloji və s. ekstralinqvistik şərtlər) əlavə olunur. G.Klaus belə hesab edir ki, “materialist idrak nəzəriyyəsi baxımından dil işarəsi dörd müxtəlif aspektdə səciyyələndirilə bilər: 1) struktur-sintaktik, 2) semantik, 3) siqmatik, yəni əşyanı nişanlama, adlandırma, 4) praqmatik aspekt (dildən istifadə etmə, psixoloji və sosioloji amillər) [9, s.13].

Məlum olduğu kimi, burada yenə də həm sistem-struktur (paradiqmatik-sintaqmatik), həm semasioloji-onomaloji, həm də psixolinqvistik-sosiololinqvistik cəhətlər nəzərə alınmışdır. Müasir

dilçilikdə səviyyə funksiya, sistem struktur kimi əsas məfhumları ifadə edən terminlər çoxmənalıdır. Son illərdə bilavasitə dilçilikdə sistem və struktur anlayışlarına geniş tədqiqat əsərləri həsr olunmuşdur. Amma yenə də belə bir sual qarşıya çıxır ki, sistem və struktur haqqında olan mülahizələrdən hansılarını üstün tutmalıyıq? Misal üçün, B.Tahirbəyov, əsasən, Q.Melikov V.Solntsevin qəbul etdikləri ümumi elmi konsepsiyaya qoşulur.

Maraqlıdır ki, strukturu qeyri-sabit və dəyişkən əlaqələr hörüyü kimi götürən V.Sviderski və V.Tuxtina istinad edir. Hansı ki, həmin filosofların əsərlərində, əksinə, söhbət sabit əlaqələrdən gedir [11,s.144].

Azərbaycan dilçiliyində isə sistem-struktur prinsiplərin qnoseoloji və metodoloji əsaslarını dərindən öyrənmiş, dialektik materializmin məzmun və forma, kəmiyyət və keyfiyyət, bütöv və onun hissələri və b. kateqoriyaları ilə üzvi əlaqədə tədqiq etmişlər. Bunların hamısının əhəmiyyəti şübhəsizdir. Lakin əgər biz ən mühüm metodoloji vəzifədən və ümdə sistem-struktur ideyadan danışırıqsa, onda mütəxəssislərin ardınca sistemin bütövlüyünü və struktur invariantlığını əsas amillərdən saymalıyıq. N.Ovçinnikov yazır: “Strukturu sistemin invariant aspekti kimi müəyyənləşdirərkən, biz xüsusilə, qeyd etmək istəyirik ki, “struktur” məfhumu sistemin sabitliyini, saxlanmasını ifadə edir” [10, s.268]. Həqiqətən, dilin quruluşu öyrənilərkən, dil vahidlərinin eyniyyəti, sabitliyi, invariantlığı problemi diqqət mərkəzində olur. Hətta dilin tarixi inkişaf qanunauyğunluqları tədqiq edilərkən yenə də təkamül proseslərinin sabitləşməsi mərhələlərini müəyyənləşdirmə metodoloji əhəmiyyət kəsb edir. Sistem anlayışı müəyyən zaman və məkan çərçivəsində mümkündürsə, struktur anlayışı məhz özünün sabitliyinə görə zaman və məkan məhdudluğundan azaddır. Qeyd olunanlara əsasən, fonemlər sistemi ancaq müəyyən bir dilin sinxron vəziyyətinə aid edilə bilər. Sözün morfoloji quruluşu isə bütün türk dillərində tarixən eyni struktur qanundan kənara çıxmamışdır. O ki qaldı məsələnin fəlsəfi əsası, bunu biz dialektikanın mahiyyətini, nüvəsini təşkil edən ümumi və başlıca qanunda görürük: vahid və bütöv prosesin ziddiyyətli hissələrə parçalanması, əksliklərin qarşılıqlı əlaqə və münasibətləri [3, s.289].

Sistem və strukturun bu və ya digər tərifindən asılı olmayaraq, həmin terminoloji anlayışların dilçilik əsərlərində tətbiq olunmasını izlədikdə aydın olur ki, adətən “system” məfhumu eynicinsli dil vahidlərinin qarşılıqlı münasibətlərini, “struktur” məfhumu isə müxtəlif səviyyəli ünsürlərin mürəkkəb bütöv daxilində təzadlı əlaqələrini bildirir [2,s.7].

**Nəticə.** Leksemin müəyyənləşdirilməsində məna və mənalandırma sistem-struktur meyarlardan təcrid olunmuş şəkildə dərk edilməz: sözün mənasının sırf dilçilik nöqteyi-nəzərindən izahında həmin sözün sintaktik və leksik-semantik əlaqələrə girmə imkanları maddi və obyektiv meyar kimi birinci dərəcəli əhəmiyyətə malikdir. Bildiyimiz kimi, sözün mənasını, vəzifəsini, kateqorial məzmunu və ümumiyyətlə, leksik-semantik və qrammatik cəhətlərinin vəhdətindən ibarət olan təbiətini tədqiq etmək üçün, hər şeydən əvvəl, sintaqmatikaya, yəni nitq axınına, birləşmə formasına və imkanlarına müraciət etmək lazım gəlir. Müasir dilçilikdə bu fikir müxtəlif struktural cərəyanların məna nəzəriyyəsi ilə xüsusi məşğul olan görkəmli nümayəndələri tərəfindən irəli sürülür. Ona görə də insan fəaliyyətini əks etdirib ona xidmət edən dil bir alət, bir vasitə kimi məhz fəaliyyətdə öyrənilməlidir. Təbii dil nitqdən kənarda mövcud olmur. Ünsiyyət fikir mübadiləsidir. Ona görə də cümlədən başlayaraq mətndə biz ünsiyyət vasitəsi olan dili tərk edib ünsiyyət fəaliyyəti olan dilə qədəm qoyuruq. Beləliklə ünsiyyət zamanı bizi maraqlandıran sözlər və onların mənaları deyil, ifadə edilən fikirlərdir: nitq, ünsiyyət fəaliyyətində fikir çıxış nöqtəsini təşkil edir. Dildən fərqli olaraq, nitq cümlə səviyyəsində məqsədə yönəldilmiş və situativdir. Məlumatın başa düşülməsi üçün nitqin situativ bağlılığı gərəkdir. Bu situativliyə isə nitq aktının konkret ekstralingvistik şəraiti, kontekst, emosiyalar və s. situasiyalar daxildir.

## ƏDƏBİYYAT

1. Aitchison, J., 1992. Linguistics. Teach Yourself Books
2. Aksan, D. Her Yönüyle Dil Ana Çizgileriyle Dilbilim. Ankara: Türk Dil Kurumu, 1998.
3. Ələkbərov, A. Leksik semantikanın bəzi metodoloji məsələləri. (Azərbaycan Dilçiliyi Müntəxəbatı), III Cild, Bakı: Abis-Alarco, 2013.

4. Elyıldırım, S. Üretici Sözlük Kuramının Anabilimdeki Yeri, Avrasya Terim Dergisi, 2017, 5 (2): 1-13
5. Müasir Azərbaycan dilinin semasiologiyası, Bakı: Elm., 1985.
6. Блауберг, И., Э.Юдин. Становление и сущность системного подхода. Изд-во «Наука», Москва 1973, səh. 91.
7. Гараева, М. К. конкретизации понятия «система языка. Баку, 1972.
8. Звегинцев, В. Язык и лингвистическая теория. Москва, 1973.
9. Клаус, Г. Сила слова. Москва 1967, səh. 13-17.
10. Овчинников, Н. Принципы сохранения. Москва, 1966.
11. Солнцев, В. Язык как системно- структурное образование. Москва, 1971.
12. Шмелев, Д. Проблемы семантического анализа лексики. Москва, 1973.

***Гульчин Софиева***

***Методологические вопросы лексики современного азербайджанского языка***

***Резюме***

Хотя лексическая семантика является темой, изучаемой в области лингвистики, изучение лексической семантики в области корпусной лингвистики является новым. Изучая лексическую семантику методами корпусной лингвистики, необходимо показать тенденции слов через данные естественного языка. Задача изучения лексического значения с системной, структурной и парадигматико-синтагматической точек зрения требует предварительного обсуждения ряда онтологических и методологических вопросов. В развитии лексической семантики лежат четыре основных теоретических направления: преструктуралистская семантика, структуралистская и неоструктуралистская семантика, генеративная и неогенеративная семантика и когнитивная семантика.В этой статье, после краткой информации об историческом развитии методических вопросов лексики современного азербайджанского языка, она подробно представлена с семантическими примерами и обсуждается ее вклад в семантику.

***Ключевые слова:*** *азербайджанский язык, лексическая семантика, корпусная лингвистика, когнитивные, методологические вопросы.*

***Gulchin Sofiyeva***

***Methodological issues of modern Azerbaijani language lexicon***

***Summary***

Although lexical semantics is a topic studied in the field of linguistics, the study of lexical semantics in the field of corpus linguistics is new. By studying lexical semantics with corpus linguistics methods, there is a need to show the tendencies of words through natural language data. The task of studying the lexical meaning from a systematic, structural and paradigmatic-syntagmatic point of view requires the discussion of a number of ontological and methodological issues in advance. There are four main theoretical trends behind the development of lexical semantics: prestructuralist semantics, structuralist and neostructuralist semantics, generative and neogenerative semantics, and cognitive semantics. In this article, after giving brief information about the historical progress of the methodological issues of the modern Azerbaijani language lexicon, it is presented in detail with semantic examples and its contribution to semantics is discussed.

***Key words:*** *Azerbaijani language, lexical semantics, corpus linguistics, cognitive, methodological issues.*

***Çapa tövsiyə edən:*** ***Odlar Yurdu Universiteti***

***Rəyçilər:*** ***dosent E.İbrahimov***
***dosent S.Quliyeva***